# UZAQ YAPONİYA, AZƏRBAYCANIN İSVEÇRƏSİ BALAKƏN VƏ ...

## (Balakəndə keçirilən III xurma festivalından reportaj)



***Məzahir ƏHMƏDZADƏ***

**Balakənin son illər ərzində inkişafı məni çox sevindirir. Çünki doğrudan da son illərdə böyük bir irəliləyiş olmuşdur. Balakəndə sosial problemlər öz həllini tapır... İnsanı fərəhləndirən bu gözəl sözlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məxsusdur. Əgər ölkə rəhbəri bir zamanların ucqar adlanan bu sərhəd rayonumuzun inkişafını, müasirləşməsini və gözəlləşməsini təqdir edirsə, deməkbizi daha böyük uğurlar gözləyir.**









**Demək ki, onda bu yerlərin şənliklərini, festivallarını, bayram ovqatlarını hələ çox yaşayacağıq...**

...Qızıl güllər diyarı gözəl Zaqataladan keçib qarşı dağlara tərəf yönəldiyin zaman hər iki tərəfi gül-çiçəkli rahat yollar səni dağlar qoynunda "gizlənmiş" şirin bir gözəlliyə çəkib aparır. Keçmiş elə keçmişlərdə qalıb. Balakənin bugünkü palitrası göz oxşayır, qəlblərə rahatlıq bəxş edir. Hələ bir müddət düşüncələrin labirintədə də qalırsan: bura ucqar bir dağ rayonudurmu, yoxsa Alplardakı şəhərlərdən birimi? Şərqdimi, qərbdimi, bilmirsən...

Bura vətəndir! Gündən-günə inkişaf edən Azərbaycan Respublikasıdır. Özü də təkcə şəhərləri, rayon mərkəzləri ilə deyil, bütün kənd və qəsəbələri ilə daim inkişafda olan doğma vətən, ana vətəndir. Və iki xarici ölkə ilə həmsərhəd olan dağlar kimi əzəmətli Balakən...

Həm də modern bir inkişafın təntənəsi...

Gerçəkdən son dövrlər buralarda görülən işlər, bütün istiqamətlərdə baş verən yeniliklər bütövlükdə Balakən rayonunun simasını büsbütün dəyişərək onu ən müasir bölgələr sırasına çıxarmışdır. Bura sərhəd rayonumuz, sərhəd qapımızdır. Dost var, düşmən də var, axı!

Dövlət Proqramlarının uğurlu icrası, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəsna qayğı və diqqəti Balakənin geniş inkişaf yolunu təmin etmişdir. Bütün bunlar barədə rayonda keçirilən tədbirlər zamanı həmişə geniş söhbətlər açılır, ölkə rəhbərliyinin ünvanına minnətdarlıqlar, alqışlar səslənir.

...Bir gözəl payız səhərində Balakən şəhərindəyik. "Qızıl payız" deyilən gözəlliyin ən şahənəsi sanki eləcə bu günün adına yazılıb, bu günə yaraşdırılıb. Şəhər bayramsayağı görkəmdə, bayram əhval ruhiyyəsində, insanlar sevinc içində... Səbəbsiz deyil. Bu gün Balakən rayonu keçmişlərdəki məhsul bayramlarının modernləşmiş formasına keçid alan xurma festivalının sevincini paylaşır. İşıq saçan bütün yollar, küçələr Heydər Əliyev parkına aparır. Yüksəklikdə əzəmətlə dayanan ulu öndərin abidəsi və bu qələbəlik, bu şənlik xüsusi bir məna daşıyır sanki. Sakinlərin, qonaqların, bütün festival iştirakçılarının, gözəl Balakən şəhərinin xoş günlərini, sevincli anlarını bir vətən parçası olaraq arzulayırdı ulu öndərimiz həmişə.

...Balakən doğrudan bu gün daha füsunkar görünür. Respublikanın paytaxtından, ayrı-ayrı şəhər və rayonlardan, daha çox mehriban qonşular kimi Zaqatala və Qaxdan gələn qonaqlar güləruz balakənlilərə qoşularaq festivalın mərkəzləşdiyi Heydər Əliyev parkına gəlirlər. Rəsmilər və festival iştirakçılarının nümayəndələri burada ucalan əzəmətli abidənin önünə gül-çiçək dəstələri düzərək ulu öndəri hörmət və məhəbbətlə yad edirlər.

Bundan sonra qonaqlar Gərəkli kəndinə gələrək buradakı xurma bağlarına ekskursiya edir, yeni xurma ağacları əkirlər. Sonra "Azərbaycan Xurma İstehsalçılarının İxracaatçıları Assosiasiyası" İctimai Birliyinin xurma növləri, onların əkilməsi, istehsalı və bazara çıxış imkanları mövzusunda təqdimatı da keçirilir.

Heydər Əliyev parkında qonaqların diqqətini çəkən kənd təsərrüfatı sərgisinə maraqla tamaşa edilir. Parkın ərazisində xurma ağaclarının sərgisi və satışı yarmarkasında da qələbəlikdir. Gəlib baxanlar, maraqlananlar çoxdur. Eləcə rayonda istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarına, habelə xurmadan hazırlanmış kompozisiyalara və kulinariya məhsullarına baxış, bu zaman alınan məlumatlar, təəssüratlar xoş təsir bağışlayır.

...Parkda qonaqları musiqi və rəqs kollektivləri yerli adət-ənələrlə özünəməxsus formada qarşılayırlar. Buradakı bölmələr, guşələr xüsusi bir zövqlə qurulub. Xurma meyvələrinin və onların timsalı olan geyimlər, orijinal əl işləri, xurmalardan hazırlanmış qeyri-adi görüntülər, əşyalar... Musiqili proqramlar, rəqslər, müxtəlif yarışlar və digər festival atributları gün ərzində bir-birini əvəzləyəcək, bir-birinə qovuşacaq.

Guşələrin birində qonaqlar Balakən xurmasının özəlliyi ilə maraqlanırlar. Belədə əslən Balakəndən olan, əvvəllər bu rayonda icra hakimiyyətinin başçısı işləmiş millət vəkili Nəsib Məhəməliyev çox maraqlı məlumatlarla qonaqları bilgiləndirir. Nəsib müəllim məhz bu xurma növünün bu yerlərə uzaq Yaponiyadan gətirildiyini bildirir. Bu təşəbbüs əvvəl-əvvəl eləcə ekzotik məna daşıyıb.

Sonralar isə kənd-kənd, həyət-həyət, bağ-bağat olub da bütün rayona yayılaraq vətənləşibdir. Nəsib müəllimin təbirincə desək, beləcə Balakənin simvollarından birinə çevrilibdir.

Burada mənim yadıma həm də Nəsib müəllimin hər zaman qürurla xatırladığı "Balakən qartalları" söhbəti düşür. Və balakənlilərin necə vətənpərvər oğullar böyütdüyünü unuda bilmirsən, onların adlarını qürurla dilə gətirirsən...

Parkdakı geniş meydanda Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev qonaqları və bütün festival iştirakçılarını bir daha salamlayaraq, hamıya əsl bayram sevinci və xoş anlar yaşamağı arzulayır. Daha sonra izdiham qarşısında çıxış edən İ.Rzayev deyir:

- Ölkəmizin sərhəd rayonu olan Balakən müxtəlif xalqların, icmaların birgə yaşadığı ən nümunəvi bölgələrdən biridir. Xalqımıza, xüsusilə bölgəyə məxsus olan, uzun tarixi yol keçib gələn adət-ənənələr, folklor nümunələri bu gün də burada mövcuddur. Tolerantlığı ilə seçilən Balakəndə azərbaycanlılarla yanaşı iyirmidən çox xalqın nümayəndəsi mehriban bir ailə kimi yaşayır.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında respublikada aparılan uğurlu sosial-iqtisadi siyasət sayəsində Balakən rayonunun da inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Bunun nəticəsidir ki, rayonun sosial-iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmış və yeni istehsal sahələri yaradılmışdır. Rayon ərazisi 100 faiz qazlaşıb. Minlərlə əhalinin yaşadığı məntəqələrini birlişdirən avtomobil yolları yenidən tikilib, genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb.

Balakəndə aqrar sahənin sürətli inkişafı, kənd təsərrüfatının ənənəvi sahələrinin dirçəldilməsi təmin olunmuşdur. Bu isə öz növbəsində rayonun ümumi iqtisadi göstəricilərinin yaxşılaşmasına, əhalinin işlə təminatının və həyat səviyyəsinin yüksəlməsinə, gəlirlərinin artmasına əhəmiyyətli təsir göstərmişdir.









Azərbaycanın bu gözəl guşəsindəki görüşlərimiz artıq xoş bir ənənəyə çevrilib. Balakənlilər möhtərəm prezidentimiz cənab İlham Əliyevin qayğı və dəstəyi nəticəsində əldə etdikləri nailiyyətləri hər il böyük coşqu və bayram sevinci ilə qeyd edirlər.

Biz artıq üçüncü Xurma festivalını keçiririk. Xurma festivalının keçirilməsi rayonumuz üçün mühüm tarixi hadisə və hərtərəfli önəm daşıyan böyük layihədir. Festival Balakəndə kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafını stimullaşdırır. Yerli məhsulların xarici bazarlarda satışının təşviqi baxımından böyük əhəmiyyət daşıyır. Xurma festivalının keçirilməsi həmçinin milli adət-ənənələrimizin, xalqımızın qonaqpərvərliyinin, rayonun turizm imkanlarının tanıdılmasında, xurmanın, ondan hazırlanan məhsulların təbliğində önəmli rol oynayır. Balakən hər zaman respublikamızda meyvəçiliyin inkişaf etdiyi rayonlardan biri kimi tanınıb. Bu gün də möhtərəm prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində respublikamızda kənd təsərrüfatının bütün istiqamətlərində, o cümlədən meyvəçilikdə dinamik inkişaf var. Sahibkarlar və təsərrüfatçılar üçün yaradılan şərait Balakəndə meyvə bağlarının gündən-günə genişlənməsinə səbəb olub.

Respublikamızda ildə 180 min tondan çox xurma istehsal olunur. Balakən rayonu xurma istehsalına görə respublikada öncül yerlərdən birini tutur. Bu gün rayonda 812 hektar xurma bağı vardır. İstehsal olunan xurmanın 80 faizi xaricə ixrac olunub.

Sevindirici haldır ki, rayonda özəl sərmayələr hesabına meyvələrin, o cümlədən xurmanın qurudulmuş formada istehsalı ilə məşğul olan "Balxurma" və "Balacans" Konserv zavodunun nəzdində "Balakan Foods" müəssisələri yaradılmışdır. İllik istehsal gücü 2 min ton olan "Balxurma" müəssisəsində istehsal üçün meyvələr Balakən rayonunun sakinlərinin şəxsi xurma sahələrindən yığılır.

Sonda İ.Rzayev dedi: mən inanıram ki, qonaqlar festival müddətində xoş təəssüratlar yaşayacaq və Balakən qonaqpərvərliyini özləri ilə ərməğan aparacaqlar. Bu festival onların yaddaşında dərin iz buraxacaqdır...

İ.Rzayevin çıxışından sonra park boyunca digər guşələr və yarmarkalarla tanışlıq davam edir. Festival iştirakçıları qonaqlara xüsusi hörmət və iltifat göstərirlər.

Beləcə, festival proqramının digər bölmələri də bir-birini əvəz edir. İdmançıların, məşhur Əmir Pəhləvanın da çıxışları maraqla qarşılanır.

**Nahar fasiləsindən sonra Bakıdan dəvət olunmuş tanınmış incəsənət ustalarının iştirakı ilə festival davam edir...**